## İdman xəbərləri

### Cüdoçularımız Azərbaycan çempionatında 3 medal qazanıb




Bakı İdman Sarayında cüdo üzrə Azərbaycan çempionatına start keçirilib. 55 klubdan 497 cüdoçunun mübarizə apardığı yarışın ilk günündə 9 çəki dərəcəsində mükafatçılar müəyyənləşib.

Ölkə çempionatında iştirak edən "Qəbələ" İdman Klubunun 60 kq çəki dərəcəsində iki üzvü, Vüqar Şirinli və Mehman Sadıxov üzüzə gəliblər. Finalda qələbə qazanan Şirinli qızıl, Sadıxov isə gümüş medala sahib çıxıb.

90 kq çəki dərəcəsində çıxış edən idmançımız Rüfət İsmayılov isə çempionatı 3-cü pillədə başa vuraraq bürünc mükafat qazanıb.

Çempionatın mükafatçılarına medallar, diplom və hədiyyələr təqdim olunub.

### Uğurla başa çatmışdır

Topaz Premyer Liqasında 2017/18 mövsümünün ilk yarısına yekun vurulub. İlk iki dövrənin yekununa əsasən, "Qəbələ" qış fasiləsinə 2-ci pillədə yollanıb. Komandamız 14 qarşılaşmada 10 qələbə qazanıb, 1 heç-heçə edib. "Qəbələ" bu 14 matçda rəqib qapılarından 28 top keçirib.

### U-16-dan səfər, U-15-dən ev qələbəsi

AFFA-nın təşkil etdiyi aşağı yaş qrupları üzrə liqalarda növbəti oyunlar keçirilib. "Qəbələ" Futbol Akademiyasının komandaları müvafiq liqalarda qüvvələrini sınayıblar.




U-17 ilin son oyununda "Neftçi"ni 4:0 hesabı ilə məğlub edib. 16 matçda 44 xal yığan komandamız qış fasiləsinə 1-ci yerdə yollanıb.

U-16 Liqasında isə həmyerlilərimiz "Turan"la səfər oyununda 3 xal qazanıb - 2:1. 14 oyundan sonra 34 xala malik "Qəbələ" ili zirvədə başa vurub.

U-15 də 2017-ci ili qələbəylə bitirib. Komandamız evdə "Səbail"in qapısından 3 cavabsız top keçirib.13 matçda 37 xal toplayan "qırmızı-qaralar" qış çempionu olublar.

Paytaxt zonasında çıxış edən U-14 "Xəzri"dən güclü olub - 10:0. 14 oyundan sonra 38 xala malik komandamız 1-ci pillədə qərarlaşıb.

Eyni zonada mübarizə aparan U-13 "Neftçi" ilə heçheçə edib - 2:2. 13 matçda 34 xal toplayan komandamız 1-ci pillədədir.

### Şahmat yarışı

Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbi 23-27 dekabr tarixlərdə 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə müəllimlər arasında şahmat üzrə rayon birinciliyi yarışları keçirmişdir. Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Ədalət Əliyev bu bayramın yaranma tarixindən danışmış, yarış iştirakçılarına uğurlar azulamışdır. Sonra yarışların baş hakimi Kamran Cabbarov və hakimlər oyunları idarə etmişlər.

Gərgin keçən mübarizədə qalib yerlər aşağıdakı kimi bölüşdürülmüşdür.

Tebriz Dəmirbəyli—1-ci yer.
Araz Alməmmədov—2-ci yer.
Aydan Hüseynzadə—3-cü yer.
Sahib Hüseynov—4-cü yer.

## Şəfalı bitkilər

### Möcüzəli cökə çayı

Cökə çiçəkləri olduqca qiymətli müalicəvi əhəmiyyətə malikdir. Ondan həm xalq, həm də elmi təbabətdə geniş istifadə olunur. Bu çiçəklər C vitamini, efir yağları, fitonsid və flavonoidlərlə zəngindir.

Tərkibindəki faydalı maddələrə görə bu çay bir çox xəstəliklər zamanı orqanizmə yaxşı müalicəvi və profilaktik təsir göstərir:

- Cökə çayı soyuqdəymə və qripə qarşı sınanmış müalicəvi vasitələrdən biridir. Çay xəstənin vəziyyətini yüngülləşdirir, hərarəti aşağı salır, sağalmanı tezləşdirir.
- Soyuq fəsillərdə xəstələnməmək üçün cökə çiçəklərindən dəmlənən çayı için. Dəmləmə immun sistemini gücləndirir.
- Flavonoidlər və C vitamini ilə zəngin olan cökə çayı həm də damarları möhkəmləndirir.
- Bu çay həzm sistemi üçün də faydalıdır. Bağırsaqlarda ziyanlı mikrobları öldürür, həzm prosesini tənzimləyir.



- Dəmləmə eləcə də baş ağrısının təbii dərmanıdır.
- Sakitləşdirici təsirə malik olan cökə çayı yuxusuzluğun aradan qaldırılmasına kömək edir, insanda xoş əhval-ruhiyyə yaradır.
- Cökə çiçəklərindən dəmlənən çay ginekoloji xəstəliklərdə, xüsusən klimakterik dövrdə qadınlar üçün faydalıdır.

-İltihaba qarşı təsir göstərən cökə çayından sistit (sidik kisəsi iltihabı) və s. sidik yolları xəstəlikləri zamanı da istifadə olunması məsləhət bilinir.

-Öskürək və bronxit zamanı bu dəmləmə orqanizmə yaxşı müalicəvi təsir edir.

***Cökə çayını hazırlamaq üçün 1 xörək qaşığı cökə çiçəklərini 200 qr isti suda 1 saat ərzində termosda dəmləyin və gün ərzində 2 dəfə yarım stəkan olmaqla için.***

Faydalı olduqdan əlavə çay həmçinin çox dadlı və ətirlidir.

## Yeni il təbəssümləri

Yeni il axşamı uşaq evdə dəcəllik etməyə başlayır. Axırı nənə deyir:
- Bax, özünü yaxşı aparsan, Şaxta baba sənə oyuncaq qatar gətirəcək
Uşaq sevinir :
- Aaa... nə yaxşıı... İndi mənim iki oyuncaq qatarım olacaq.

- İki niyə ? - nənə təəccüblənir.
- Birini sənin çarpayının altından tapmışam.

* * *

- Şaxta baba, gətirdiyin hədiyyə üçün çox sağ ol.
- Əşşi boş şeydi... Təşəkkür etməyə dəyməz.

- Mən də o fikirdəyəm... Ancaq anam dedi ki təşəkkür et.

* * *

- İçkinin və siqaretin zərərli olduğu haqda o qədər oxudum ki, yeni ildə tərgitməyi qərara aldım.
- Nəyi - içkini yoxsa siqareti ?
- Oxumağı.

## Bilirsinizmi?

*Şam ağacını bəzəmək ənənəsi ilk dəfə orta əsrlərdə Almaniyanın ərazisində əmələ gəlmişdir.*

* * *

*Qar qızın vətəni Kostrom əyalətidir.*

* * *

*İspaniyada və Kubada Yeni ildə 12 üzüm yemək kimi bir adət var.*

* * *

*Yeni ildə fişəng partlatmaq adəti Asiyadan gəlib. Bunun mənası ondadır ki, fişəng nə qədər rəngarəng və yüksək səsli olsa, pis ruhlar bir o qədər qorxarlar.*

* * *

*Kiprdə Şaxta babanı Vasiliy adlandırırlar.*

* * *

*İlk dəfə Şaxta baba 1840-cı ildə Odoyevskinin "İriney babanın nağılları"nın personajı kimi xatırlanır.*

*"Şaxta baba" obrazının kökləri isə slavyan mifologiyasına aiddir.*

* * *

*Ceyms Beluşi aktyor karyerasına başlamamışdan öncə Santa Klaus olaraq çalışırdı. O hədiyyə payladığı zaman polis tərəfindən saxlanmışdı. Sürücülük vəsiqəsi olmadığı üçün Santa Klausun qollarına uşaqların gözü qarşısında qandal taxılmışdı.*

## Küknar ağacının bəzədilməsi ənənəsi

Yeni il bayramını al-əlvan, bərli-bəzəkli küknar ağacsız təsəvvür etmək qeyri-mümkündür.

Bəs Yeni il bayramında yolka bəzəməyin mənası nədir? Çoxları şam ağacları bəzəmək ənənəsini də xristian dini ilə əlaqələndirir. Əslində isə, həyat rəmzi olan şam ağacının bəzənməsi tarixi xristianlıqdan əvvəl başlayıb və hansısa bir dinlə bağlı deyil. Hələ miladdan çox-çox əvvəl qədim Misir sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirdilər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi idi. Romalılar isə "Əkin allahı»nın şərəfinə evlərini yarpaqlarla bəzəyirdilər.

Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edirdilər. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın 25-də qeyd edilən Adəm və Həvva bayramının rəmzi idi.

Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlısanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya—Amerikaya yolkanı burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ evin qarşısında bu mərasim keçirilir.

Beləcə şam ağacı bütün dünyada məşhurlaşıb.

QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə
2018-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir

İllik abunə qiyməti 30 manat,
yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Ağayeva Zöhra Məhəmməd qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 1241 F nömrəli(kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Torpaq Şöbəsi ilə 10 iyun 2000-ci il tarixdə bağlanmış 2 nömrəli icarə müqaviləsinə əsasən Qəbələ şəhər sakini **Abdurahmanov Eldar Sarxan oğluna** verilmiş JN seriyalı 0541 nömrəli (kod 40600001) **torpaqdan müvəqqəti istifadə hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Qəbələ" qəzeti redaksiyasının kollektivi iş yoldaşları **Nahidə Əbdürəhimovaya** yaxın qohumu

LEYLA XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.